## Regionların inkişafı diqqət mərkəzindədir

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı 2009-2013-cü illəri əhatə edən ikinci Dövlət Proqramının başa çatmasına bir ildən az vaxt qalır. Proqramın həyata keçirilməsi istiqamətində görülmüş işlər ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuş, qeyri-neft sektorunun davamlı inkişafına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, regionlarda kommunal, xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəlməsinə təkan vermiş, sahibkarlıq mühitinin daha da yaxşılaşmasında, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində və yoxsulluğun azalmasında mühüm rol oynamışdır.

*Dövlət Proqramında qoyulmuş vəzifələr uğurla həll edilir*

Prezident İlham Əliyev 2013-cü ilə qədər regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar Dövlət Proqramının icrası ilə bağlı hökumət üzvlərinə verdiyi tapşırığa uygun olaraq, bu vaxta qədər həll olunmamış məsələlərin, o cümlədən bütün bölgələrdə əhalini narahat edən problemlərin aradan qaldırılması əsas prioritet vəzifə kimi qarşıya qoyulmuşdur.

Qeyd edək ki, 2009-cu ildən 2012-ci ilə qədər ölkə üzrə 14 min 700-dən çox müəssisə fəaliyyətə başlamış və onlardan 180 mini daimi omaqla 241 min yeni iş yeri yaradılmışdır. Yoxsulluğun səviyyəsi isə 7,6%-dək endirilmişdir. Sahibkarlığın davamlı inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması, daxili və xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun genişləndirilməsi nəticəsində özəl sektorun ölkə iqtisadiyyatında payı 80%-dən çox olmuşdur.

*Regionlarda müəssisələrin sayı artır*

Respublikamızda sahibkarlıq subyektlərinin dövlət qeydiyyatının tamamilə asanlaşdırılması onların sayının çoxalmasına və yeni iş yerlərinin sayının artmasına rəvac verir. 2011-ci ildə ölkəmizdə 5137 yeni müəssisə yaradılmış və bunun da nəticəsində 94111 yeni, o cümlədən 72353 daimi iş yerləri açılmışdır. Regionların sosial-iqtisadi inkişafına istiqamətlənmiş ikinci Dövlət Proqramının icrasını əhatə edən 01 yanvar 2009-cu il tarixindən 01 yanvar 2012-ci il tarixinə qədər olan dövr ərzində isə cəmi 240733 yeni, o cümlədən 179589 daimi iş yeri yaradılmışdır.

Özəl sektorda 96,3% təşkil edən yeni açılmış daimi iş yerlərinin mütləq əksəriyyəti qeyri-neft sektorunda, o cümlədən 5,2%-i tikinti, 4,7%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 3,3%-i emal sənayesi, 1,8%-i maliyyə və sığorta fəaliyyəti, 1,4%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, eləcə də digər fəaliyyət sahələri üzrə ixtisaslaşan müəssisə və təşkilatlarda yaradılmışdır.

Cari ilin birinci rübü ərzində 20 minə yaxını daimi olmaqla 24 min yeni iş yeri açılmışdır. Qeyri-neft sektoru yeni iş yerlərinin yaradılmasında həlledici rol oynamış, 1,2 min yeni müəssisə yaradılmışdır ki, bu müəssisələrin 84,3%-i xüsusi mülkiyyətli müəssisələr olmuşdur.

**Rəşad SADIQOV**